*İbrahimov Səbuhi. Əlyazma mətnlərdə naxçıvanli müəlliflərin həyat və yaradıcılığına dair bir baxış // Elmi əsərlər,2020,2(11),iyul-dekabr, s.23-27.*

UOT: 801. 73

**İbrahimov Səbuhi,**
*fəlsəfə üzrə fəlsəfə doktoru, dosent*
*AMEA Naxçıvan Bölməsi*
*Naxçıvan şəhəri, Heydər Əliyev prospekti, 76*
s.ibrahimov71@mail.ru

# ƏLYAZMA MƏTNLƏRDƏ NAXÇIVANLI MÜƏLLİFLƏRİN HƏYAT VƏ YARADICILIĞINA DAİR BİR BAXIŞ

***Açar sözlər:*** *Hacı Molla Məhəmməd Naxçıvani, həyat və yaradıcılıq, əsər, fəlsəfə, məntiq, əlyazma.*

***Giriş .*** *XIX əsrin axırı – XX əsrin əvvəlləri Naxçıvan mühitinin yaratdığı görkəmli elm adamlarının həyat və yaradıcılığı haqqında aparılan məqsədyönlü araşdırmalar göstərir ki, həqiqətən zəngin bilik və bacarığa malik olan müəlliflər tarixdə silinməyən simalara çevrilmişlər. Azərbaycan xalqının maariflənməsində əbəssiz səylər göstərmiş Nəsirəddin Tusi, Əkmələddin Naxçıvani, Nəcməddin Naxçıvani, Hinduşah Naxçıvani, Nemətullah Naxçıvani, Məhəmmədəli Naxçıvani, Hüseyn Cavid, Mirzə Cəlil, Məhəmməd Tağı Sidqi, Məmməd Səid Ordubadi və b. kimi tanınmış simaların əsərləri öz layiqli yerini tapmışdır. Onların qələmə aldıqları hər hansı bir əsər bəşər mədəniyyətinin inciləri sırasına daxil edilmiş və bir neçə yüzilliklərdir ki, bəşəriyyətə xidmət edir. Mütəfəkkirlərimizin yaratmış olduğu bu qiymətli fəlsəfi, ədəbi-bədii, elmi, tarixi və məntiqi ideya mənbələri milli sərvətimiz olaraq nəsildən-nəsilə çatdırılaraq öz dəyərini saxlamaqdadır.*

Belə mütəfəkkirlərdən biri də XIX əsrin axırı – XX əsrin əvvəlləri Naxçıvan mühitində dünyaya göz açmış və bu topraqdan maddi və mənəvi-ruhi qida almış, görkəmli mənəvi sərvət xəzinəsi olan Hacı Molla Məhəmməd Naxçıvanidir. Naxçıvanlı müəlliflər sırasında özünə layiqli yer tutan görkəmli Hacı Molla Məhəmməd Naxçıvaninin AMEA Naxçıvan Bölməsi Əlyazmalar Fondunda qorunan kitablarının tədqiqinə dair bir neçə istiqamətdə araşdırmalar aparılmış və məlum olmuşdur ki, müəllifin indiyə qədər beş kitabı çap edilmişdir. Bu kitabların biri azərbaycan, digəri azərbaycan, ərəb və fars dillərində, üçü isə fars dilində qələmə alınmışdır. Əsərlərinin çap xüsusiyyətinə görə bəzisi "kustod", "paqinasiya" (yəni vərəqləmə ardıcıllığı itmədən axırıncı sətrin bitməsi ilə ikinci səhifəyə keçməmişdən əvvəl vərəqin aşağı sol küncündə sətrin birinci sözü yazılır və sonradan yeni vərəqdə yenidən yazılaraq sətr davam etdirilir) formasında çap edilmiş və bəzi kitabları isə sadə formada yazılmışdır. Müəllifin əsərləri əsasən nəstəliq-şikəstə xətt nümunələri ilə yazılmışdır.

Belə ki, əski çap kitablarının çap edilmə xüsusiyyətləri dövrünün tələbinə görə; elmi kitablar ərəb dilində, bədii kitablar fars dilində və ən-ənəvi kitablar isə azərbaycan dilində nəşr edilirdi ki, bu da öz növbəsində geniş oxucu kütləsinə malik olurdu.

Hacı Molla Məhəmməd Naxçıvaninin neçənci ildə anadan olması və nə vaxt vəfat etməsi məlum olmasa da yerli əhalinin dediyinə görə o, XIX əsrin ortalarında Naxçıvan şəhərinin Şahab məhəlləsində anadan olmuş, elmə, təhsilə marağı onda Nəcəfi-Əşrəf şəhərində oxumağa həvəs yaratmış və tez bir zamanda oranı oxuyub doğma vətəni Naxçıvana qayıtmış və Naxçıvanın vaizi "din rəhbəri, axundu, qazisi" olmuşdur. Hətta onun 1905-1906-cı illərdə, istərsə də 1918-1920-ci illərdə xalq ilə birlikdə olması və fitnəkar düşmənlərə qarşı güclü müqavimətin göstərilməsi də danılmazdır. Çünki yerli ziyalı ağsaqqalların dediyinə görə 1920-ci ildə ingilislərin Naxçıvanda olması illərində İngilis

ordusunun içərisində ərəb sərkədələri də olmuş və onların namaz əsnasında ərəb dilində H.M.Naxçıvaniyə **“İngilislər burda qalan deyil, bir neçə günə buranı tərk edib gedəcəklər. Ermənilər isə başsız qalacaqlar. Onlar gedən kimi siz öz hücumunuzu təşkil edin”** deyə Naxçıvani ilə gizli maarifləndirmə işi aparmışlar.

Həmçinin H.M.Naxçıvaninin vətənpərvər bir insan olması və eyni zamanda maarifləndirici ziyalı rolunun oynaması onun görkəmli pedaqoq Məhəmməd Tağı Sidqi ilə 19 səhifəlik dilimizin saflığı haqqında dərin mənalı məktublaşması olmuşdur. Həmin məktub indi də AMEA Naxçıvan Bölməsi Əlyazmalar Fondunda saxlanılır (1).

Təəssüf ki, bu yenilməz ziyalının 1920-ci ildən sonra Naxçıvanda qalması mümkün olmamış və o, Nəcəfi-Əşrəf şəhərinə köç etmiş, lakin qərib ölkədə özünü qərib bilməmiş və elmini daha da mükəmməlləşdirərək Nəcəfi-Əşrəf məktəbinin müəllimi, sonra isə “ منصب نائب رئيس الجامعة” yəni; –“Universitetin rəis müavini, prorektor” vəzifəsinə kimi yüksələrək bu vəzifədə çalışmışdır. Onun bu vəzifədə çalışması yerli azərbaycanlıların, xüsusən naxçıvanlıların da orada oxuması və yüksək təhsil alması üçün zəmin yaratmışdır.

Hacı Molla Məhəmməd Naxçıvaninin dini və elmi yaradıcılığının əsasını təşkil edən onun birinci kitabı “Səhabəd-Dümu” (Buludların göz yaşları) 1309 h.q.(miladi – 1887) olmuşdur (2). Əsər əsasən İslam tarixi ilə yanaşı, Kərbəla hadisəsinin baş vermə xüsusiyyətləri, onda baş verən hər hansı bir hadisənin xronoloji ardıcıllığı ilə verilməsi və nəticədə isə ümumbəşəri ideyaların yaşaması, milli-mənəvi dəyərlərin, əxlaqi dəyərlərin, insani dəyərlərin qiymətləndirilməsi ümumi baxışda nəzərdən keçirilmişdir.

Müəllifin ikinci “Kəşkülün-Nur” (Nur qabı) 1312 h.q.(miladi – 1892) kitabı olmuşdur (3). Kitab ibrətamiz kəlamlarla, nəsihət yönümlü qissələrlə, Quran ayələrinin, hədis və bəzi tarixi hadisələrin verilməsi çox böyük önəm daşıyır. Əsər əsasən üç dildə Azərbaycan, ərəb və fars dillərində yazılmışdır.

Müəllifin üçüncü kitabı “Dürrətül-əbrar” (Söylənilməmiş inci sözlər) 1315 h.q. (miladi – 1894) çap edilmişdir (6). Əsər əsasən fars dilində nəstəliq xətt nümunəsi ilə yazılmışdır. H.M.Naxçıvaninin bu kitabı dəyərli məlumatlarla zəngindir. Müəllif əsərdə Naxçıvanın ictimai mühitinin saf və sağlam tərzdə formalaşmasını, məntiqi, elmi idraka söykənərək davranmağı, təfəkkür prosesinin bir çox sahələrini, mənəvi-ruhi sferanın və s. İnkişaf etdirilməsi məqsədilə çox dərin və eyni zamanda maraqlı mənbələrə müraciət etmişdir. Əsərdə yaşanan elmi-fəlsəfi hisslər və ağlın təzahürü sarsılmazdır.

Hacı Molla Məhəmməd Naxçıvaninin dördüncü “Qürrətul-Əbsar” (“Gözlərin-Nuru”) 1317 h.q. (1896) əsəri də elmi baxımdan xüsusi əhəmiyyət kəsb edir. Əlyazmada islam fəlsəfəsi öz əksini tapmışdır. Müəllif milli-mənəvi dəyərlərimizi, milli mədəniyyətimizi, fəlsəfi dünyagörüşümüzü və həmçinin mədəni irsimizi “Rüb” şəklində (yəni dörd rəmzi xarakter daçıyan, dördlük olaraq) şərh etmişdir. Müəllif əsərdə yer, göy, okeanlar, çaylar, hərflər, mələklər, səmavi kitablar və s. haqqında bəhs etmişdir.

Dörd əlamətlərlə sadalanıb məsəl gətirilən hər bir kəlamın məntiqi mahiyyəti odur ki, “Qürrətul-Əbsar” kitabı dörd babdan ibarət olan hadisələrlə bağlıdır. Müqəddimədən sonra birinci babda həzrət Məhəmməd peyğəmbərin həyat və yaradıcılığı, İslam dininin yaradıcı səbəbkarı, 23 il peyğəmbərlik müddətində qazandığı nailiyyətlər və apardığı məşəqqətli mübarizəsi əks olunub.

İkinci babda həzrəti Əli əleyhis-salamın fəzilətləri barədə ətraflı məlumat verilib, möcüzəvi Allah evin olan Kəbədə dünyaya gəlməsi, Allah evində məsciddə hansı hal ilə şəhadətə yetməsi, sevimli peyğəmbərimizin layiqli vəsisi olması və onun İslamda olan qəhrəmanlıq salnamələri öz əksini tapmışdır.

Üçüncü babda Peyğəmbərin sevimli qızı Fatimeyi-Zəhra əlehas-salamın atasından sonra hansı müsibətlərə düçar olmasından və başına gələn dözülməz mərhumiyyətlərdən geniş və hər tərəfli danışılmış və vəfat etməyinə neçə səbəbin olması qeyd edilmişdir.

Dördüncü babda isə həzrəti İmam Həsən əleyhis-salamın şərəfli həyat yolu, fəzilətləri, başına gələn böyük müsibətlər bir neçə mərhələdə şərh olunmuşdur.

Hacı Molla Məhəmməd Naxçıvaninin "Qürrətul-Əbsar" əsəri elmi baxımdan xüsusi əhəmiyyət kəsb edir. Əlyazmada islam fəlsəfəsinin bir çox sahələri öz əksini tapmışdı.

Müəllif əsərdə qeyd edir ki, həqiqətən Allah dörd sifətin sahibidir: "Əxyar (xeyirxah), Əbrar (doğruçu), Qadir (qüdrət və qüvvət sahibi) və Qəhhar (yetərincə güclü) olmaqla Ərşi-əzimi (Allahın taxt-tacı olan 9-cu və ən böyük göy kürsüsünü) bu sütunlar üzərində yerləşdirərək qərar vermiş və ucaltmışdır" (5, s. 4).

İnsanı gecə-gündüz Onun zikrin etməkdə ən gözəl və ən şərafətli dörd təsbihatdan ibarət olan "«Sübhanəllah», «Vəlhəmdulillah» və «La ilahə illəllah», «Vəllahu əkbər»" (5, s. 4) kəlmələri deyir.

O, müsəlman aləmində ən böyük bayramlardan "Fitr" bayramı, "Qurban" bayramı, möminlərin "Cümə" bayramı və "Qədir-xumm" bayramını xüsusi qeyd etmişdir.

Dörd müsəlman aylarının Allah yanında hörmətli olduğunu və bu ayda müharibə etmək, qan tökmək, savaş və münaqişə yaratmaq haramdır ki, bunlar Zilqide əl-həram, Zilhiccə əl-həram, Mühərrəm əl-həram və Rəcəb əl-mürəccəb aylarıdır.

Allahın böyük adı çəkilən "Bismillahir – rəhmanir – rəhim" kəlməsində dörd çeşmənin və müxtəlif cür dad verən suyun axmasını qeyd edir: "Birinci, gözün ağından axan «mim» çeşməsidir ki, Allahın «bism» kəlməsinin hərfi olmaqla «su çeşməsi» adlanır; ikincisi, gözün ağından axan «ha» çeşməsidir ki, «Allah» kəlməsinin hərfi olmaqla «süd çeşməsi» adlanır; üçüncüsü, gözün ağından axan «mim» çeşməsidir ki, «rəhman» kəlməsinin hərfi olmaqla «cənnətdəki şərab çeşməsi» adlanır; dördüncüsü, gözün ağından axan «mim» çeşməsidir ki, «rəhim» kəlməsinin hərfi olmaqla «bal çeşməsi» adlandırmışdır" (5, s. 4).

"Allah-Təala dünyada dörd böyük nəhrləri (çayları) yaratmışdır ki, bunlardan Fərat, Nil, Ceyhun (Amurdərya) və Seyhan (Sırdərya) çaylarıdır" (5, s. 4).

Həmçinin əsərdə "Kafi" kitabından nəql olunur ki, həzrəti Peyğəmbər əleyhis-salam buyurur: Şəqavətin (bədbəxtçiliyin) dörd əlaməti vardır: "Şorgözlük, xayin qəlb, dünyapərəst və günah etməkdə israrlı olan" (5, s. 4).

Yer üzündə Şərqdən Qərbə qədər olan yerlərdən cəmi dörd məkan vardır ki, o yerlərdə müsafir (səfərdə olan) namazını bütün qılır: "Məscidül-həram (Məkkə, Kəbə evi), Peyğəmbər məscidi (Mədinə), Kufə məscidi (Nəcəfi-əşrəf) və Kərbəla məscidi (Kərbəla)" (5, s. 4).

Allah yanında ən böyük müqərrəb (yaxın) olan dörd mələk vardır ki, xüsusi yer tuturlar: "Cəbrayıl, Mikayıl, İsrafil və Əzrayıl əleyhuməs-salamdır" (5, s. 4).

Qurani-Kərimdə dörd vacib səcdə vardır ki, hər bir müsəlman onu eşitsə vacibdir ki, səcdəyə düşsün və natəmiz insanın onu oxuması haramdır: "Nəcm surəsi-62, Ələq surəsi-19, Səcdə surəsi-15 və Fussilət surəsi-37" (5, s. 4).

Allah-təala dünyada dörd qadını ixtiyar sahibi edib: "Məryəm əleyhas-salamı, Asiya əleyhas-salamı, Xədicə əleyhas-salamı və həzrəti Fatimə əleyhas-salamı" (5, s. 4).

Dörd əsas səmavi kitab nazil olub dörd peyğəmbərə: "Zəbur həzrəti Davud əleyhis-salama, Tövrat həzrət Musa əleyhis-salama, İncil həzrət İsa əleyhis-salama və Qurani-Kərim həzrət Məhəmməd əleyhis-salama" (5, s. 4).

Hacı Molla Məhəmməd Naxçıvaninin beşinci əsəri "Məzahir əl-Ənvar" ("Nurların zahir olduğu yerlər") 1319 h.q. (miladi – 1898) kitabıdır. Bu əsər mahiyyət etibarilə dərin düşüncələri ifadə etməklə dövrünün müsəlman təhsili istiqamətində zəruri hesab edilən məsələləri və ehkamları özündə təzahür etdirir. Həmçinin əsərdə Naxçıvanla bağlı bir neçə tarixi hadisənin bağlılığını görürük. Belə ki, əsərdə Müzəffərəddin şahın Naxçıvanı və onun müqəddəs yerlərini ziyarət edib Firəngistana (Fransa) getməsi səfəri geniş qeyd edilir. Hətta əsərdə onun "Culfa körpüsündən keçərək Naxçıvana səfər etməsi və sonra Firəngistana getməsi" (2, s. 245) barədə geniş və ətraflı bəhs edilir. Əlyazmada o da göstərilir ki, onun gəlişinə Naxçıvanda ona dərin mənalı bir qəsidə də yazılmışdır.

"Bu qəsidə Sultan Müzəffərəddin şahın Culfa körpüsündən keçərək gözəlliyi və əzəməti ilə seçilən Naxçıvan şəhərinə gəlməsi, oradan isə Firəngistana getməsi şərəfinə yazılmışdır" (2, s. 249).

**Nəticə.** Aparılan araşdırmaların məntiqi nəticəsi olaraq belə nəticəyə gəlmək olar ki, naxçıvanlı müəlliflərin, o cümlədən Hacı Molla Məhəmməd Naxçıvaninin zəngin yaradıcılığı haqqında geniş məlumatı həm arxiv materiallarından, həm də Şərq aləminin nüfuzlu təhsil ocaqlarından olan Nəcəfi-Əşrəf məktəbinin arxiv materiallarından əldə etmək mümkündür.

Belə ki, yetmiş il rus əsarəti dövründə elmi ateizmin mənfur ideoloji siyasəti nəticəsində xalqımızın görkəmli elm adamları günahsız yerə məhv edilmiş, bir hissəsi güllələnmiş və bir hissəsi isə baş götürüb Yaxın Şərqin elm mərkəzlərinə sığınaraq öz bilik və bacarıqlarını inkişaf etdirmişlər. Bu elm mərkəzlərindən biri də məhz Nəcəfi-Əşrəf məktəbi olmuşdur.

**Ədəbiyyat:**

1. Məhəmməd Tağı Sidqi. Axund Hacı Molla Məhəmməd Naxçıvaniyə məktub. 1316 h.q. Əlyazma, AMEA Naxçıvan Bölməsi Əlyazmalar Fondu, C-1 / 1. 19 s.
2. نخجوانی حاج ملا محمّد, مزاهر الانوار, 1317 ه.ق260 ص
3. نخجوانی حاج ملا محمّد, کشکول النور , 1312 ه.ق. 560 ص
4. نخجوانی حاج ملا محمّد, سحاب الدّموع 1295, ه.ق. 492 ص
5. نخجوانی حاج ملا محمّد قرة الابصار .1318 ه.ق 546. ص
6. نخجوانی حاج ملا محمّد درة الارار 1315 ه.ق. 377 ص

***Ибрагимов Сабухи***

**ОБЗОР ЖИЗНИ И ТВОРЧЕСТВА НАХЧИВАНСКИХ АВТОРОВ В РУКОПИСНЫХ ТЕКСТАХ**

**Резюме**

Статья содержит важные материалы о жизни и богатом творчестве нахчыванских авторов, в том числе Хаджи Молла Мухаммада Нахчывани, жившего и творившего в конце 19 - начале 20 веков. В статье также освещены результаты исследований их творчества, на основании которых было выявлено, насколько богата и разносторонняя творческая деятельность Х.М.Нахчывани. Помимо филологического анализа пяти основных его работ, большее внимание привлекли некоторые философские аспекты его книг, были сделаны определенные логические выводы.

**Ключевые слова:** *Хаджи Молла Мохаммад Нахчывани, жизнь и творчество, работа, философия, логика, рукопись.*

***Ibrahimov Sabuhi***

**AN OVERVIEW OF THE LIFE AND CREATIVITY OF NAKHCHIVAN AUTHORS IN MANUSCRIPT TEXTS**

**Summary**

The article contains materials on the life and rich work of Nakhchivan authors, including Haji Molla Muhammad Nakhchivani, who lived and worked in the late 19th - early 20th centuries. The article also highlights the research results of their creativity, on the basis of which it was revealed how rich and versatile the creative activity of H.M. Nakhchivani is. In addition to the philological analysis of his five main works, some of the philosophical aspects of his books attracted more attention, and certain logical conclusions were drawn.

**Keywords:** *Haji Molla Mohammad Nakhchivani, life and creativity, work, philosophy, logic, manuscript.*

.

*Redaksiyaya daxil olma tarixi: 09.11.2020*
*Çapa qəbul olunma tarixi: 23.11.2020*

*AMEA-nın müxbir üzvü, professor*
*Əbülfəz Quliyev tərəfindən çapa tövsiyə olunmuşdur.*